# Sosial xidmətlər sahəsində beynəlxalq əməkdaşlıq uğurla nəticələnir

***Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevlə Türkiyənin Ailə və Sosial Xidmətlər naziri Dərya Yanık arasında videokonfrans formatında bugünlərdə keçirilən görüşdə həssas əhali qruplarından olan şəxslərə sosial xidmətlərin təşkili üzrə qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb. S.Babayev Azərbaycan və Türkiyə arasındakı sarsılmaz dostluq, qardaşlıq və xalqların birliyi amilinə əsaslanan strateji tərəfdaşlığın daim inkişaf etdiyini, bu istiqamətdə iki qardaş ölkənin dövlət başçılarının birgə səylərinin mühüm rolunu vurğulayıb. 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin hər bir Azərbaycan vətəndaşını qürurlandırdığını qeyd edib.***

Nazir ötən dövrdə ölkəmizdə aparılan sosial islahatlar və onların müsbət nəticələri, DOST konsepsiyası, şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri, postmüharibə dövründə şəhid ailələri və qazilərlə bağlı sosial dəstək tədbirləri, sosial sahədə elektron texnologiyaların tətbiqi, əhaliyə göstərilən proaktiv xidmətlər və digər məsələlər barədə məlumat verib. Ötən dövrdə iki qardaş ölkə arasında digər sahələrdə olduğu kimi, sosial xidmətlər sahəsində də formalaşan uğurlu əməkdaşlıqdan bəhs edib. Əlilliyi olan şəxslərin və ahılların, uşaq və qadınların, müharibə iştirakçıları və şəhid ailələrinin sosial rifahının təmin olunması istiqamətində əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

D.Yanık iki qardaş ölkə arasında əlaqələrin daim inkişaf etməsinin məmnunluq doğurduğunu bildirib. O, Türkiyənin sosial islahatlar sahəsində təcrübəsindən, əldə olunan uğurlardan bəhs edib. Eyni zamanda, valideyn himayəsindən məhrum uşaqların müdafiəsi, ailələrə sosial dəstək tədbirlərinin həyata keçirilməsi, ailə əsaslı alternativ qayğı formalarının inkişaf etdirilməsi və bu sahədə aparılan digər islahatlarla bağlı əməkdaşlığın və məlumat mübadiləsinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə, həmçinin Azərbaycan Türkiyə arasında sosial müdafiə sahəsində ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə də geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, ölkəmizdə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş internat məzunlarının sosial – məişət şəraitinin yaxşılaşdırılması qanunvericiliyə uyğun həyata keçirilir. Bir neçə il əvvəl Abşeron rayonunda 3 yaşayış binasından ibarət mühüm sosial layihə – “Məzun evi” sosial xidmət müəssisəsi layihəsi həyata keçirilib ki, bu mənzillər də internat məzunlarına təqdim edilib. Sosial Xidmətlər Agentliyi tərəfindən “Məzun evi”ndə 360-dan çox mənzil məhz internat məzunlarına verilib. Xatırladaq ki, bu tədbirlər

2021-ci ildən davam etdirilir. Sosial Xidmətlər Agentliyi dövlət uşaq müəssisələrinin məzunu olan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum şəxsləri mənzillərlə təmin edir. Bu müddət ərzində Abşeron rayonundakı yaşayış kompleksində 200-dən çox, ümumilikdə isə 600-dan çox internat məzununa mənzillər təqdim edilib və bu proses hazırda da davam etdirilir. Bu isə öz növbəsində dövlətimizin bu kateqoriyadan olan vətəndaşlarımıza qayğısının bariz nümunəsidir.

Yeri gəlmişkən, ölkəmizdə bundan sonra övladlığagötürmə sahəsində olduğu kimi, “Himayədar ailə” qayğı modelinin tətbiqi sahəsində idarəetmə və xidmətlər də e-infrastruktur üzərindən həyata keçiriləcək. Hazırda “Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə” altsistemində yeni fuksional imkanların yaradılması işləri aparılır. Həmçinin “Himayədar ailə” qayğı modelinin tətbiqi ilə bağlı qanunvericilik bazasının yaradılması işləri də davam etdirilir. Eyni zamanda, müvafiq sahələrdə çalışan əməkdaşlar üçün növbəti aylardan Türkiyənin ekspertləri tərəfindən reinteqrasiya, himayədar ailə üzrə müvafiq mütəxəssis konsultasiyaları keçiriləcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, ölkəmizdə əlilliyi olan şəxslər üçün reabilitasiya infrastrukturu müasir tələblərə uyğun qurulur və bu məsələyə xüsusi diqqət yetirilir. Reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm işlər aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi – Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə göstərilən reabilitasiya xidmətləri ilə tanışlıq üçün ötən həftə Qəbələ Uşaq Reabilitasiya Mərkəzinə mediatur təşkil edib. Qeyd edək ki, müasir cihazlar və tibbi – reabilitasiya avadanlıqları ilə təchiz olunmuş Qəbələ Uşaq Reabilitasiya Mərkəzi də ötən ilin dekabr ayında istifadəyə verilib. Mərkəzin məqsədinin tibbi, sosial, əmək reabilitasiya tədbirlərinin aparılması yolu ilə18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərin sosial statusunun bərpa edilməsi və onların cəmiyyətə inteqrasiyasını təmin etmək olduğu qeyd edilib. 25 çarpayılıq mərkəzdə müasir tələblərə uyğun şərait yaradılıb. Müəssisədə bölgədəki rayonlar üzrə bu günə kimi mindən çox uşağa ambulator və stasionar formada səmərəli fizioterapevtik üsullar əsasında və müasir avadanlıqlardan istifadə edilməklə xidmətlər göstərilib. Media nümayəndələrinə bildirilib ki, hazırda Dövlət Tibbi – Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzi ilə yanaşı, Bakı şəhərində 1 və 2 saylı Uşaq Reabilitasiya mərkəzləri var. Ölkəmizdə uşaq bərpa müəssisələri şəbəkəsinin genişləndirilməsi işləri çərçivəsində hazırda Şəmkir rayonunda da Uşaq Reabilitasiya Mərkəzi inşa etdirilir.



Onu da qeyd edək ki, işsizliyin aradan qaldırılması məqsədilə bir sıra layihə və proqramların həyata keçirilməsində Dövlət Məşğulluq Agentliyinin rolu böyükdür. Agentliyin icra etdiyi “İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi” proqramı üzrə 2022-ci ilin 6 ayı ərzində 850 işsiz şəxsə iş yerlərinə göndərişlər verilib. 300-dən çox namizəd artıq işə qəbul prosesini tamamlayıb. Proqram üzrə cari ilin ötən dövründə 80-dək, ümumilikdə isə 262 işəgötürənlə əməkdaşlığa başlanıb və onlarla müqavilələr imzalanıb. Həmin müqavilələr üzrə əsasən şəhid ailəsi üzvləri və qazilərdən ibarət 841 şəxs işlə təmin edilib. İşlə təmin edilənlərin hər biri ilə əmək müqaviləsi bağlanıb. Onu da vurğulayaq ki, proqram əsasında işlə təmin edilən şəxslərin 1 il ərzində əməkhaqlarının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdirilir.

Yeri gəlmişkən, qeyd edək ki, “Əmək və Məşğulluq” altsistemində (ƏMAS) yeni funksionallıqlar yaradılıb. Artıq əmək müqaviləsinin bağlanma tarixi əvvəlki dövrə aid olan və hər hansı səbəbdən işəgötürən tərəfindən indiyədək e-sistemə daxil edilməmiş əmək müqaviləsi bildirişlərinin də sistemə əlavə olunması mümkün olacaq. Həmçinin yanlış daxil edilmiş bildirişlərin etibarsız edilməsi üçün Dövlət Əmək Müfəttişliyi Xidmətinə (DƏMX) ƏMAS üzərindən elektron qaydada müraciət etmək də olar.

Əvvəllər işəgötürən tərəfindən xitam bildirişlərinin yalnız 24 saat ərzində etibarsız edilməsi mümkün idi. Hazırda isə işəgötürənlərə heç bir məhdudiyyət qoyulmayıb. Onların müraciətinə DƏMX tərəfindən baxılaraq, uyğun görüldüyü halda müvafiq əməliyyatın icra edilməsinə icazə veriləcək.

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 9 iyul.- S.8.